# Böyük qayıdış

Biz bu gün böyük fəxrlə deyə bilərik ki, Azərbaycan Respublikası müstəqil ölkədir. Bizdə bu müstəqil ölkənin vətəndaşlarıyıq. İllərdir düşmən əsarətində olan Qarabağ artıq işğal altında deyil.

Xalq arasında belə bir deyim var: "Ət dırnaqdan ayrılmaz". Qarabağda Azərbaycanın əzəli, əbədi torpağıdır. Azərbaycandan ayrı qala bilməz, qalmadı da.

44 günlük müharibə müzəffər Azərbaycan ordusunun qələbəsi ilə başa çatdı. İllərdir vətən həsrətində olan xalq öz doğma yurd-yuvasına geri dönəcək.

Artıq 44 günlük müharibənin ardından işğaldan azad olunmuş ərazilərimizdə yenidənqurma işlərinə start verilib.

30 ilə yaxındır erməni vandallarının xarabazara çevirdikləri tarixi yurdlarımızın bərpası, inkişaf axarına qarışması, sosial-iqtisadi dirçəlişi indi Azərbaycanın qarşısında duran ən mühüm vəzifədir.

Ölkə rəhbərinin tapşırığı ilə hazırda işğaldan azad olunmuş ərazilərdə infrastrukturun qurulması tikinti, abadlıq işlərinin aparılması, kiçik və orta sahibkarlığın inkişafına dəstək göstərilməsi istiqamətində hazırlıq işləri görülür, yeni layihələr hazırlanır.

Müharibə bitdikdən sonra Ali Baş Komandan Prezident İlham Əliyev işğaldan azad olunmuş torpaqlarımıza səfər edərək, erməni vandalizminin yaxından şahidi olmuşdur. Prezident İlham Əliyev artıq Qarabağda bir neçə layihənin təməlini qoymuşdur.

**26 aprel - Prezident İlham Əliyevin Qarabağa növbəti səfəri...**

Prezident İlham Əliyev işğaldan azad edilmiş Füzuli, Cəbrayıl, Zəngilan və Laçına səfərində, bölgəyə əvvəlki səfərlərində də olduğu kimi bir sıra infrastruktur layihələrinin açılış və təməlqoyma mərasimində iştirak etmiş, mühüm siyasi bəyanatlar vermişdir. Çünki döyüşlər bizim tarixi qələbəmiz ilə başa çatsa da, düşmən tərəfi hələ də müxtəlif bəhanələrlə beynəlxalq aləmi çaşdırmaqla məşğuldur.

Ölkə başçısı bu dəfəki səfəri zamanı Horadiz-Ağbənd dəmir yolu xəttinin təməlini qoydu. Bu yeni xəttin çəkilməsi Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında birbaşa əlaqənin yaranması baxımından mühüm əhəmiyyət kəsb edir.

Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızları Leyla Əliyeva daha sonra Cəbrayıl rayonunda Dövlət Sərhəd Xidmətinin hərbi hissəsinin açılışında iştirak ediblər.

**"Ağıllı kənd" layihəsi**

Hazırda sürətli texniki tərəqqi insan həyatının bütün sahələrində özünü fəal şəkildə göstərir. Belə ki, dünyanın, şəhərlərin inkişaf sürətini artırır və buna uyğun olaraq da yeni texnologiyaların inkişafına təkan verir. Buna görədir ki, dünyada "ağıllı kənd" layihəsi sürətlə populyarlıq qazanır və bir sıra ölkələrdə bu layihə artıq reallığa da çevrilmişdir.

Ölkəmizdə də artıq bu mühüm prosesə start verilmişdir. Hazırda bir milyondan çox soydaşımız öz el-obasına, kəndlərinə qayıtmağı səbirsizliklə gözləyir. Aprelin 26-da artıq bu istiqamətdə ilk addımlar atıldı. Bu həm də "Böyük Qayıdış" ın başlandığı gün hesab olunur.

Belə ki, aprelin 26-da işğaldan azad edilmiş Zəngilan rayonunda Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızları Leyla Əliyevanın iştirakı ilə ilk "ağıllı kənd" layihəsinin təməli qoyuldu.

"Ağıllı kənd" pilot layihəsi Zəngilanın 1-ci, 2-ci və 3-cü Ağalı kəndlərini əhatə edir. Layihənin icrası, əsasən, 5 komponent üzrə aparılacaq. Onlar yaşayış, istehsal, sosial xidmətlər, "ağıllı kənd təsərrüfatı" və alternativ enerji sahələridir. Ərazidə, ilk olaraq, tam izolyasiya olunmuş və innovativ tikinti materiallarından istifadə olunmaqla 200 fərdi evin tikintisi nəzərdə tutulub. Bu kəndlərdə müasir məktəb, bağça, poliklinika və elektron idarəetmə mərkəzləri inşa olunacaq, turizm infrastrukturu formalaşdırılacaq. Layihənin icrasında Çin, Türkiyə, İtaliya və İsrail şirkətlərinin mütəxəssisləri də iştirak edəcəklər.

Dövlət başçısı Zəngilan rayonunun sakinləri ilə də görüşüb və həmsöhbət olub. Biz bu çıxışları izlədik də bir daha sakinlərin öz yurd-yuvalarına qayıtmaları üçün necə də səbirsizləndiklərini açıq-aydın görə bilirik.

30 ilə yaxındır ki, torpağına həsrət qalan qadının Prezidentə "Ağıllı kəndinə xoş gəlmisiniz" deməsi, necə də gözəl bir səhnədir.

"Möhtərəm cənab Prezident, mən sizi kəndimizdə görməyimə çox məmnunam. Mən Zəngilanda doğulan ən son körpələrdənəm, buranı məcburi köçkün kimi tərk edəndə yeddi aylıq olmuşam. Bu gün, 28 ildən sonra ilk dəfədir ki, biz öz dədə-baba torpağımıza qədəm qoyuruq və sevindirici hal ondan ibarətdir ki, cənab Prezident, sizinlə bir yerdə ayaq basırıq".

Zəngilan sakini olan bu gəncin sevincini, danışarkən keçirdiyi o həyəcanı hiss etməmək qeyri-mümkün idi. 28 ildən sonra bu gənc öz dədə-baba yurduna ayaq basır. Bu gənc kimi minlərlə Qarabağ sakini tez bir zamanda, öz dədə-baba yurdlarında yaşamaq üçün can atır. Müharibə bitəndən bu günə kimi Qarabağ sakinləri hər vasitə ilə öz yurdlarını görməyə can atırlar. Dəfələrlə öz torpağını görmək üçün Qarabağa getməyə çalışan sakinlər minaya düşərək xəsarət alıb və dünyasını dəyişib. Lakin yenə də onlar öz canları bahasına da olsa, bu torpaqlara ayaq basmağa tələsirlər.

Amma vətəndaşlarımız unutmamalıdır ki, tez bir zamanda öz torpaqlarına mərhələli şəkildə, təhlükəsiz şəraitdə geri qayıdacaqlar. O zamana qədər Qarabağ əvvəlkindən də daha gözəl formada abadlaşdırılmış olacaq. Biz illərdir həsrətini çəkdiyimiz torpaqlarımıza qayıdacağıq və Prezident İlham Əliyevin də dediyi kimi "Qarabağı cənnətə çevirəcəyik".

**İlahə RƏHİMOVA.**

# Şuşadan sonra yolumuz Zəngəzuradır

Baş sərkərdə İlham Əliyev: işğal edilmiş torpaqların hər bir qarışı bizim üçün doğmadır, əzizdir, lakin Şuşanın Azərbaycan xalqının qəlbində xüsusi yeri var. Ona görə də Şuşasız bizim işimiz yarımçıq olar. Çox keçmədi, 2020-ci il noyabrın 8-də Müzəffər Ali Baş Komandanın fikirləri gerçəkliyə çevrildi. Qüdrətli Azərbaycan Ordusu Şuşanı 29 ildən sonra düşmən tapdağından azad edib Ermənistanı qarşısında diz çökdürdü.

İlham Əliyevin Şuşada dalğalandırdığı Azərbaycan bayrağının kölgəsi bütün Qarabağa düşdü. Şuşanı Azərbaycanın mədəniyyət paytaxtı elan edən Prezident şəhərin bütün infrastrukturunun, memarlıq abidələrinin bərpası ilə bağlı tapşırıq verdikdən sonra qədim şəhərimizdə Novruz tonqalını alovlandırıb düşmənə gözdağı verdi.

May ayında İlham Əliyev üçüncü dəfə Şuşaya səfər etdi. Bu dəfə Cıdır düzündə möhtəşəm, əzəmətli bayram mərasimi düzənləndi. Prezidentin dediyi kimi, hər bir azərbaycanlı üçün müqəddəs olan yerdə musiqi, birlik, qayıdış və ləyaqət bayramı qeyd edildi. "Xarıbülbül" musiqi festivalı 30 ildən sonra yenidən nəinki Qarabağa, bütün dünyaya səs saldı. Festival şəhidlərimizin ölməz ruhuna şad etdi, hər kəsdə qürur, fəxarət hissi yaşatdı.

Bu əzəmətli mərasimdə İlham Əliyev Ermənistana, onun havadarlarına bir daha mesajlar ünvanlayaraq bəyan etdi ki, Azərbaycan güc, iradə, cəsarət, milli ruh hesabına tarixi ədaləti bərpa edib və müharibə artıq bitib. İndi abadlıq-quruculuq işləri ilə məşğul olmaq zamanıdır. Azərbaycan dövləti sülh şəraitində Qarabağın əvvəlki şöhrətini özünə qaytarmaq üçün bütün imkanlarını səfərbər edib.

"Xarıbülbül" festivalı bir çox özəllikləri ilə yaddaşlarda qaldı. Öncə ölkəmizdə yaşayan xalqların musiqi qrupları və ifaçıları öz çıxışları ilə Azərbaycanın millətindən, dinindən asılı olmayaraq, hər bir kəsin vahid Vətəni olduğu mesajını dünyaya çatdırdılar. Festivalın açılışındakı çıxışında İlham Əliyev bu mesajın əhəmiyyətini xüsusi vurğuladı: "Azərbaycanda bütün xalqlar dostluq, qardaşlıq, həmrəylik şəraitində yaşayır və bu 44 günlük müharibə bir daha onu göstərdi ki, ölkəmizdə milli birlik, milli həmrəylik vardır. Bir daha biz bütün dünyaya buradan - Şuşadan, qədim torpağımızdan mesaj veririk".

Şuşada yeni məscidin, orta məktəbin təməli qoyuldu. Ermənilər tərəfindən qurudulmuş "Xan qızı Natəvan" bulağından su gəldi. Yeni təmir edilən Yuxarı Gövhərağa məscidində bayram namazı qılındı. Bütün bunlar əlbəttə ki, böyük rəmzi məna daşıyırdı.

Bu mərasimi keçirməklə İlham Əliyev bir daha dünyaya bəyan etdi ki, Azərbaycan sülhün, əmin-amanlığın tərəfindədir. Ancaq Ermənistan ötən il noyabrın 10-da imzalanmış birgə Bəyanatın bütün bəndlərində göstərilən tələbləri yerinə yetirməsə, vəziyyət dəyişə bilər. Bu isə yalnız Ermənistanın düşdüyü acınacaqlı durumu daha da ağırlaşdıracaq.

Qeyd edək ki, son vaxtlarda Ermənistanda revanşist qüvvələr müxtəlif bəyanatlar səsləndirməklə Zəngəzur dəhlizinin reallaşmayacağı barədə iddialar irəli sürürlər. Qalib sərkərdə onlara sonuncu xəbərdarlığını ünvanlayaraq Azərbaycanın heç bir güzəştə getməyəcəyini bəyan edib: "İndi Ermənistan Zəngəzur dəhlizinin icrasına əngəl törətmək istəyir. Lakin onları məcbur edəcəyik. Necə ki, qovmuşuq torpaqlarımızdan, bütün istədiyimizə nail olacağıq. Beləliklə də Ermənistanın Azərbaycanın siyasi iradəsini qəbul etməkdən başqa yolu qalmayacaq. Biz Zəngəzur dəhlizini icra edəcəyik, Ermənistan bunu istəsə də, istəməsə də. İstəsə, daha asan həll edəcəyik, istəməsə də zorla həll edəcəyik".

10 noyabr Bəyanatının 9-cu bəndində göstərilir ki, bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Bəyanatın bu bəndi Zəngəzur dəhlizinin reallaşması istiqamətində Azərbaycan üçün hüquqi zəmin yaradır. Yəni Ermənistan bu dəhlizin açılması üçün üzərinə götürdüyü öhdəliyi yerinə yetirməlidir. Əgər bu, baş verməsə, Azərbaycan yenə güc tətbiq edəcək. Zəngilanı Naxçıvanla birləşdirəcək 40 kilometrlik Zəngəzur dəhlizi mütləq açılacaq.

Zəngəzur dəhlizinin açılması ilə illərlə blokada şəraitində qalan Naxçıvanın Azərbaycanın əsas hissəsi ilə əlaqəsi təmin olunacaq. Bütün manеə cəhdlərinə baxmayaraq, Zəngilan-Ordubad dəmir yolu xətti və bütövlükdə, Zəngəzur dəhlizinin açılması üçün real zəmin formalaşıb.

İlham Əliyevin dediyi kimi, Azərbaycan öz üzərinə düşən vəzifələri icra edəcək. Ermənistanın revanşist əhval-ruhiyyəli davranış tərzi isə yalnız onların özünə ziyan verəcək. Bir sözlə, həm Ermənistan, həm də onlara yüzillər boyu havadarlıq edənlər bilməlidirlər ki, Azərbaycanla təhdid dilində danışmaq mümkün deyil. Azərbaycan öz haqqı olanı alıb və bundan sonra da alacaq.

**"Qəbələ"**

# Öz qəlbinin tufanında...

Valideynlər öz körpələrini canlarından çox sevərlər. Axı körpələr onların sabahı, həyatlarının davamıdır. Elə bir davamı ki, həyata onların gözləri ilə baxar, onların ayaqları ilə gəzər, əlləri ilə hərəkət edər, ürəkləri belə onların ürək döyüntülərinin ritmləri ilə bərabər vurar. Bəzən elə çətinliklərlə böyüdər ki, valideynlər onları... bir qarın ac, bir qarın tox... Bir-birinin, çox zaman da qohum paltarları ilə... istədiyi geyimi, yeməyi, istədiyi oyuncaq və s. əşyaları ala bilməyəcək, maddi sıxıntıların ömür salnaməsində hər gün hiss ediləcək bir durumu ilə. Belə olduqda saxta gülüşlər, saxta vədlər baxışlardan ürəklərə göz yaşından "arxlar" salar... Uşaqlarsa çox zaman valideynlərinin zəngin sevgisini duyaraq maddiyyatla bağlı bütün arzuları qəlblərində "doğularkən", bəzən doğulmamış belə "dəfn edərlər". Ancaq həmişə onların ətrafında pərvanə kimi dolanar, valideynlərinin halallıqla qazandıqları çörəkdə "dadı, duzu" olar onların. Bax belə övladlar həm ailəcanlı, böyük-kiçiyə hörmət etməyi bacaran, əməksevər, vətənpərvər, insani keyfiyyətlərlə zəngin böyüyərlər. Bu keyfiyyətlər çox zaman onların ömür salnaməsinin "əxlaq kodeksi" olar. Əxlaqi baxımdan zənginlik isə hər insanda formalaşa bilməz. Bu baxımdan zəngin olanlar bəşəriyyətdə - insanlar arasında seçilər; məhz həyatının qədərindən asılı olmayaraq əbədiyaşarlıq qazanarlar.

Tural Cəlilov da məhz belə bir ömür yaşayan gənclərdən idi. Qəbələnin gözəl təbiətli bir guşəsində, 1996-cı ildə Dızaxlı kəndində dünyaya göz açmışdı. Zəhmətkeş bir ailənin övladı idi. 6 övlad böyüyən bu ailə həmişə halal çörəyini özü qazanardı. Məhz övladları da, Cəllad və Gülbarə Cəlilovlarla bərabər təsərrüfatda çalışar, maldarlıqla məşğul olardı. Tural evin ortancıl övladlarından olsa da, onun da özünəməxsus işi var idi. Həmişə valideynlərinə, böyük qardaşlarına köməkçi olardı.



Orta məktəbi bitirdikdən sonra ilk növbədə əsgəri xidmətə getmək, kişilik məktəbini başa vurmaq istəyirdi. Tural hələ uşaqlıq illərində belə idmana çox maraq göstərərdi. Arzusu idi idmançı olmaq, təhsil alıb bu sahənin mütəxəssisi olmaq. Ancaq yaşadığı çətinliklər, mühit onun bu arzusunu həyata keçirməyə şəraitin yaranmasına imkan vermədi. Hələ uşaqlığından tam ayrılmamış elə acılar yaşadı ki... Həssas qəlbi yüklındiyi acıların ağırlığından əzilə-əzilə "çilləkənli" bir həyata qədəm qoydu. Hərdən elə düşünərdi ki, qayğısız uşaqlıq illərinə dönə bilsəydim... Geriyə dönüş yoxdur, bu həyatın qanunu. Böyüdükcə həyat acılı-şirinli günləri bəxş etmək üçün qapılarını açır insan övladının üzünə. Tural da orta məktəbi bitirdikdən sonra 2014-cü ildə həqiqi hərbi xidmətə çağırıldı. Əvvəlcə Gəncədə, sonra isə Tərtərdə kəşfiyyatçı bölümündə xidmət etmişdi. Xidməti borcunu yerinə yetirdikdən sonra öz doğulduğu məkana qayıdan tural əsl kişilik məktəbini başa vurduğu üçün qürurlu idi. Neçə müddətdir ayrı düşdüyü kəndinin gözəlliklərini doya-doya yaşamaq, əzizləri ilə vaxt keçirmək, ana nəfəsinin qoxusunu doyunca almaq istəyirdi. Ancaq bir gün şair demiş:

**Geydi qar donunu**
**gün donlu səhər,**
**Tikanlı ayaz da nəfəsi oldu...**

Neçə vaxtdır həsrətini çəkdiyi anası Gülbarə xanım dünyasını dəyişdi. Ağır, çox ağır sarsıntı yaşadı... Qardaşı görüşünə gəlmişdi xidmət etdiyi bölüyə. Onu icazə ilə evlərinə aparmaq üçün. Elə bil Turalın ürəyinə nə isə dammışdı... Evlərinə çatanda onun qarşısına ana çıxmayanda ürəyi sancdı və həsrətində olduğu ana qollarının onun boynunu qucaqlamayacağını anladı. Anası qolları üstə can verən özündən kiçik qardaşı Əsədin keçirdiyi həyəcan, sonradan ağır psixoloji hala düşməsi də qəlbinə acı don geydirdi.

Tural əsgərlikdən gələn kimi 2015-ci ildə aldığı yara azmış kimi qardaşı cüdo üzrə Gəncədə ikinci yer tutmuş Əsəd də dünyasını qəfil dəyişdi. Bu acını cilovlamaq istərkən 2017-ci ildə Tural ata itkisi ilə qarşılaşdı. Acılar bitmək bilmirdi.

(Ardı 5-ci səhifədə).